# Şəhid qəhrəmanın poetik obrazı

**Ayaz Arabaçı Azərbaycanın ədəbi mühitində yaradıcılığı poetik dərinliyi ilə seçilən, söz vurğusuna, duyğu ritminə xüsusi diqqət yetirən istedadlı şairdir. Onun "Səssiz qalmayan zəfər" adlanan yeni kitabı ölüm ayağında belə üçrəngli dövlət bayrağımızı əlindən verməyən Milli Qəhrəman Natiq Qasımovun şücaətinə poetik ehtiramın ifadəsidir.**

Natiq 5 gün ərzində Alban kilsəsində təkbaşına mübarizə apararaq Azərbaycan bayrağını düşməndən qorumuş və onun bu cəsarəti Moskva nəşri olan "Oqonyok" jurnalında əksini tapmışdır.

Müəllif igid Vətən oğlunun hünərini şeir dili ilə ifadə etməklə, oxuculara həm missiya, həm də vətənpərvərlik hissini ötürməyi bacarıb. Ayaz Arabaçı Natiqin qəhrəman obrazını vətən şüuru ilə birləşdirərək müasir poeziyamıza yeni nəfəs gətirib.

**Ruhu ləkələnməz qəlbi təmizin,**
**Çatsın qulağına hər qitəmizin.**
**Gözü aydın olsun xəritəmizin –**
**Bitdi, ey, Qarabağ töhməti bitdi.**




Kitabın təqdimat mərasimində də qeyd edilib ki, böyüklüyü vətən sevgisi ilə ölçülən şeirlər Azərbaycan ədəbiyyatına layiqli töhfədir.

***XQ***

Xalq qəzeti .- 2025.- 13 avqust (№168).- S.14.